MÜASİR AZƏRBAYCAN ƏDƏBİYYATI

# TOFİQ BAYRAM

# SEÇİLMİŞ ƏSƏRLƏRİ



TOFİQ BAYRAM

# SEÇİLMİŞ ƏSƏRLƏRİ

233959
M.F.Axundov adına
Azərbaycan Milli
Kitabxanası

"LİDER NƏŞRİYYAT"
BAKI-2005

## ŞAİRİN ŞİKAYƏTİ

### İŞTİRAK EDƏNLƏR

| | |
|---|---|
| Füzuli | |
| Nərgiz | – Füzulinin qadını |
| Sultan Süleyman | – Türkiyə sültanı |
| Vəzir | |
| Qasid | |
| I məmur | |
| II məmur | |
| Uşaqlı qadın | |
| Kəndlilər | |

Əhvalat XVI əsrdə, qədim Bağdad şəhərində baş verir.

### BİRİNCİ ŞƏKİL

Füzulinin evi. Ev orta əsr üslubu ilə döşənmişdir. Məhəmməd Füzuli əynində əba, başında araqçın köhnə həsir üstə əyləşmişdir. Onun qarşısında bir neçə kağız, əlində isə qələm var. Qadını Nərgiz bir az kənarda ayaq üstə dayanmışdır.

Füzuli

*(öz-özünə)*

Dust bivəfa, fələk birəhm, dövran bisükun.
Dərd çox, həmdərd yox, düşmən qəvi, tale zəbun.
Sayeyi-ümmid zayil, afitabi-şövq kərm,
Rütbəyi-idbar ali, payeyi tədbir dün.

Nərgiz

*(Füzuliyə yaxınlaşaraq)*

Məhəmməd, əzizim, yenə qəmlisən?

Füzuli

Bu qəm dəryasında şad olummu mən?

Nərgiz

Çıx, bir az şəhərdə nəfəsini dər,
Səni bu dörd divar sıxmayır məgər?
Fikirdən, qüssədən azad olarsan.

Füzuli

Bu geniş kainat qəlbimə dardır
Çiynimdə dünyanın qəm yükü vardır.
Deyirsən şəhərdə şad oluram mən,
İnan ki, od çıxır nəmli gözümdən
"Tökdükcə qanımı oxun, ol asitan içər
Bir yerdəyəm Əsir ki, torpağı qan içər".
Nə sarayım olsun, nə xanimanım,
Barı, vətənimdə çıxaydı canım.
Artıq qocalıq da durub qəsdimdə
Əcəb qanadını gərib üstümə.

Nərgiz

Əzizim, qəm çəkmə, fəqan eyləmə
Mənim də qəlbimi gəl qan eyləmə,
Sənə yalvarıram az canını üz
Kasıb komamızda keçsin ömrümüz.

Füzuli

Bir kömək ummuram öz sabahımdan,
Göylər də alışıb könül ahımdan.
Hanı sənətkarın Adı, hörməti,
Ayağa salırlar şeri, sənəti,
Niyə bu dərdimə məhəl qoyan yox?



Niyə mənim kimi məni duyan yox?
Of, yandım bir içim su ver içim mən.
Dəryalar quruyar bu atəşimdən.

Bu an otağa bir qasid gəlir. O, şairə hörmətlə təzim edir.

Qasid

Ey möhtərəm şair. Möhtərəm sultan
Sizi sarayında gözləyir bu an.
Deyir müntəzirik gəlişinə biz,
Sizin o mübarək qədəmləriniz.
Saray pilləsinə toxunsa əgər,
Bu böyük gəlişə sultan sevinər.

Füzuli dərin fikrə gedir. Nərgiz ona yaxınlaşır.

Nərgiz

Bu böyük töhfədir sənə əzizim,
Tale ulduzumuz parladı bizim.
Dayanma, saraya tələs, Məhəmməd
Sultandan görərsən ehtiram, hörmət
Nə fikrə getmisən?

Füzuli

Yox-yox sevinmirəm bu dəvətə mən,
Bu zinətsiz otaq zinətdir mənə
Ürəyim sıxılır, gözüm qaralır
Mənimçün gen dünya inan, daralır
Mən bir şah önündə baş əyməmişəm,
Özüm söz mülkündə şaham demişəm
Ləkəsiz vicdanım, təmiz ürəyim
Bir içim saf suyum, quru çörəyim
Şahın təamından əzizdir mənə.

Ana südü kimi təmizdir mənə,
Nə oldu qocalıb düşəndə əldən
Sultanın yadına indi düşdüm mən?
Nədir bu ehtiram, nədir bu hörmət?

N ə r g i z

Sultan qəzəblənər, tələs, Məhəmməd
Deyər mələklərin hökmdarına
Şair məhəl qoymur,
Yol verme buna.

Q a s i d

Şair müntəzirəm sizə bayaqdan
Cavab gözləyirəm.

Füzuli qaşlarını çataraq dərin fikrə gedir.

N ə r g i z

O gedir, dayan.

F ü z u l i

Demək varlığımı çəkib dara sən,
Məni göndərirsən saraylara sən.

N ə r g i z

Axı əlac nədir, dayanma daha
Get, yolun uğurlu, pənah Allaha...
Görünür çox sevir sənətini o,
Bilir sənətkarın qiymətini o.



F ü z u l i

Nə deyim, nə deyim zavallı qadın
Sən də əsirisən rütbənin, adın
Gedirəm, getməyir köksümdə ürək
Of...
Qasid, hardasan, hazıram, gedək.

## İKİNCİ ŞƏKİL

Sultan Süleymanın sarayı. Sultanın ətrafında əyanları, vezir, vəkil var. Şair Füzuli əl ağacına söykənərək içəri girir. O, saray əyanlarına yavaşca təzim edib, sultanla üzbəüz durur.

S u l t a n

Sənətkar xoş gəlib məclisimizə
Onun bu gəlişi nemətdir bizə.
Sevindim oxuyub "Leyli Məcnunu"
Mən sənət ulduzu sanıram onu.
Düşüb hər nəğməniz dilə, ağıza
Qoca Şərq baş əyib kəlamınıza.
Böyük qüdrətsiniz. Heyiflər ki, siz
Mənim sarayımdan gen gəzirsiniz.
Deyirlər ağırdır güzəranınız
Kasıb bir komadır xanimanınız
Sizin halınıza acıyıram mən.

F ü z u l i

Təşəkkür edirəm buna ürəkdən

S u l t a n

Bəs necə?
Sizin qayğınıza mən qalmalıyam.
Xalqın nəzərində ucalmalıyam.

Füzuli

(*kinayə ilə*)

Ya Sultan, mən bununla tanışam, tanış.
Ədalət sizinlə əkiz yaranmış

Sultan

Mərhaba, mərhaba, böyük sənətkar,
Sizdə həqiqətin sönməz nuru var.
Yaxşı, indi belə, möhtərəm şair,
Mədhiyyələr deyin bizlərə dair

Vəzir

Yerin Allahıdır Sultan Süleyman,
Layiqdir adına min böyük dastan.

Vəkil

Bəli, mərhəməti, əzəməti var,
Önündə baş əyir vüqarlı dağlar,
Məmləkət onunla bəxtiyar olmuş,
O, Şərqə sahibi-ixtiyar olmuş.
Onu mədh etsəniz kəlməbaşı siz,
Məliküşşüəra seçilirsiniz
Sizin qismətiniz Ənam, pay olar.

Sultan

Necədir? Xoşdurmu söylə bu həyat,
Vəzifə, ehtiram, böyük mükafat.

Füzuli

Ellərin qəlbindən qopan səsəm mən
Ləkəsiz günəş tək müqəddəsəm mən.



İlk andım xalqıma məhəbbətimdir.
Yoxsulluq ən böyük səadətimdir.
Sən şəhər alırsan qılınc gücünə
Sözlə təslim olmur ürəklər mənə.
Bəlkə sən tökdüyün qızıl qan qədər
Alnımdan tökülmüş mənim inci tər.
Sən at çapdıraraq məmləkətlərə,
Qoşunla, ləşkərlə çatdığın yerə
Səndən tez yetişir şöhrətim mənim
Budur mükafatım, dövlətim mənim.
Ya Sultan, incimə bu sözlərimdən
Əzəldən həqiqət aşiqiyəm mən.
De görüm, ömürlük qalacaqmısan?
Ömürlük sən sultan olacaqmısan?
Dövrani-fələyin inqilabından
Sən təxti-tacından düşdüyün zaman
Bu möhtəşəm saray payimal olar
Qılıncın kütləşər, hökmün lal olar,
Onda nəiyn qalar?
Soruş özündən.
Sənət sarayının sultanıyam mən.
Püskürsə min vulkan, qopsa min tufan,
Bir daşın yerindən oynamaz, inan.
Bu daş-qaş beş günlük parlayır ancaq,
Hər sözüm min illər parıldayacaq.
Ey Sultan, saraya çəkmə gəl məni
Payimal eləyər bu əməl məni.

Vəzir

Ya sultan, Üsyandır onun dediyi

Vəkil

Ağzından gəlir onun qan iyi.
Bəli, tanıyıram bu məhzəbsizi

Baş ağrısı verib ayıldım sizi,
Dünən bir qiyamçı öldürülərkən
Şairin qəzəli çıxdı cibindən
Fatihə vermədi.

Sultan

Necə. Nə dedi?

Vəkil

Dedi: "Cəhənnəm odunda razıyam yanım
Füzuli şeridir mənim Quranım".
O lənətə gəlmiş dini unutdu
Qəzəli öpərək kağızı uddu.
Sonra də kəndiri saldı boynuna.

Sultan

Şair nə deyirsən? Cavab ver buna

Füzuli

Siz qüdrət sahibi, yerin Allahı,
"Həqiqət carçısı", "xalqın pənahı",
Güc sizdə, zor sizdə, ləşkər sizdədir,
Ölkələr, şəhərlər əlinizdədir.
Sizə əl qaldırır sizin bəndəniz
Ölüm ayağında mənə çökür diz.
Mən kiməm, uğursuz, kasıb sənətkar,
Bəs nədən o şəxsin sənə nifrəti,
Mənə dindən artıq etimadı var?
Gördünmü, itidir sözüm qılıncdan
Sən böyük sultansan, mən böyük sultan?



Sultan

Heyranam mən sənin cəsarətinə,
Hər sözün batsa da nizə tək mənə
Qəzəbim tutsa da cəza vermirəm.
Qocasan, ölməyə rəva görmürəm.
Bu gün-sabahlıqsan, get öz evinə.
Al, həmin baratı verirəm sənə
Bu sənə ömürlük mükafatımdır.
Şerinə hörmətim, iltifatımdır

Sultan Füzuliyə möhürlü bir kağız uzadır.

Füzuli

(*acı kinayə ilə*)

Mən şeir mülkünə incilər düzən
Gözlərə nur verən ürəklər gəzən,
Şərqin nəğməkarı qoca Füzuli,
Vüqarı dağlardan uca Füzuli.
Səndən doqquz axça barat alıram,
Zəngin xəzinədir bu böyük ənam
Gələcək nəsillər eşitcək bunu,
Bilər ədalətin nə olduğunu,
Nə böyük səxavət, nə böyük hikmət.
Sizdə həm qayğı, həm də məhəbbət.
Təşəkkür edirəm buna ürəkdən,
Bu zəngin ənamı unutmaram mən.

## ÜÇÜNCÜ ŞƏKİL

Övqaf idarəsi. Qapı ağzında bir neçə əyni-başı cırıq kəndli və bir nəfər əli uşaqlı qadın dayanmışdır. İçəri iki məmur və bir də xəzinədar var. Onlar camaatın şikayətini ağızucu dinləyib, onları yola salırlar. Bəzisini də heç eşitmək istəmirlər.

Uşaqlı qadın

Ağa yalvarıram, rəhm elə mənə.

I məmur

Rədd ol, demədimmi ay arvad, sənə.

Uşaqlı qadın

Ağa, parçalanır sinəmdə ürək
Balama bir quru çörək ver, çörək,
Mənə kömək elə, yazığam, əl tut.

I məmur

Arvad, baş aparma, o sözü unut.

Uşaqlı qadın

Səni and verirəm o bir Allaha,
Uşağım can verir, batma günaha.

I məmur

Neyləyim can verir, cəhənnəmə ki,
Gözlərin kordumu küçələrdəki
Görmürsən acından ölənləri sən,
De görüm, onlardan artıqsan, nəsən?

Qadın

(*əlini uzadır*)

Barı bircəaxça.



I məmur

Dedim xəzinədə yoxdur pulumuz,
Bizi dəng etməyin, tez rədd olunuz.

Kəndli

Ağa, beş balam var.
Ötən il əkmişdim bir qarış yeri,
O günü bir türk əsgəri
At çapıb dağıtdı əkin yerimi,
Dindim, qamçısını alıb əlinə,
Vurdu, huşum başımdan gedənə kimi.
Bax, ağa, kürəyim qançır olubdur,
Qaranlıq komamız ahla dolubdur.
Əkin də əlimdən çıxdı, barı sən,
Borc ver xəzinədən, yapış əlimdən.

I məmur

Xəzinə dədəndən qalıbdır miras?
Sus. Murdar, yaramaz.

Kəndli

Onu kürəyimdən çıxarmısan sən,
Niyə bizdən alıb, bizə vermirsən?
Övqaf-Allah evi, həmişə bişək
Yoxsula, kasıba əl tutsun gərək.
Üç gündür bu yerdə sürünürəm mən,
Ürəyimin ahı çıxır gözümdən.

I məmur

Öl, çıxsın canın.

Kəndli

Allaha xoş getməz,
Böyük sultanın
Dolandır başına, mənə rəhm elə.

II məmur

Dilə bax, dilə.

Fərraş

(*Fərraş gəlir*)

Bəli, ağa.

Məmur

Rəd delə başımdan bu məlunları,
Gözlərim görməsin bir də bunları

Bir neçə fərraş camaatı bayıra çıxarır. Camaat gedə-gedə əl açıb Allahdan kömək diləyir.

Barı sən şahid ol ey pərvərdigar
Yazıq bəndələrin nə günahı var?
Tər tökən də bizik, qəm çəkən də biz,
Rəhm et, parçalanır ürəklərimiz

Bu an qoca Füzuli içəri girir. Onun əlində Sultanın baratı var. Məmurlar ona əhəmiyyət vermirlər. O, bir neçə an səssiz dayanır, nəhayət onlara yaxınlaşaraq dillənir.

Füzuli

Salam



I məmur

Salamı, kalamı saya salmırıq,
Ey qafil, rüşvətsiz salam almırıq,
Nə var, nə deyirsən?

(*birinci məmur ikinci məmura*)

Bəli də, füzulun biri də gəldi,
Əli ətəyindən uzundur deyən,
Mən getdim onunla özün danış sən.

I məmur

Hə, tez ol, bura say, işin düzəlsin,
De görüm cibində neçə var sənin.

Füzuli

Yoxdur rüşvət vermək fikrim, ay ağa,
Haqqımı gəlmişəm burdan almağa.

Məmur

Nə? Qoca, sürüş, vaxtımı alma.
Haqqını. Ha...ha...ha... Gəl elə salma.
Yaxşı, kimsən, nəçisən.

Füzuli

Şair Füzuli

Məmur

Tanımıram mən.
Tutaq ki, şairsən,
Kasaddır bazar.
Bunun cibişdana nə faydası var?

Füzuli

Ərz edim dayan,
Məlumun olsun ki, Sultan Süleyman,
Mənə doqquz axça mükafat verib,
Möhürlü, imzalı bir barat verib,
Buyur, budur, al.

Məmur

(*Baratı alıb deyir*)

Hə, belə zavalı, miskin,
Bu ənam əlinə yetişməz sənin

Füzuli

Bəs böyük Sultanın hökmü, fərmanı?

Məmur

Fərman, o fərmanın kəsəri hanı?
O vermiş boynunu büküb sən burda,
Namübarək üzlər görəsən burda.
Sıxsın varlığını "rədd ol", səsimiz
Səni süründürək qapılarda biz.
Qoca əgər qalsa öz qarnımızdan,
Onda öz haqqını sən də alarsan.

Füzuli

Axı, övqaf pulu xalqın malıdır.

Məmur

Bəli, Sultan özü bundan halıdır.



Füzuli

Bəs, birdən hesaba alınsa bu var?

Məmur

Hələlik hesablamırlar.
Bəlkə qiyamətdə hesabladılar.

Füzuli

Bəs yetim uşaqlar, yurdsuz insanlar,
Dağılmış binalar, günahsız qanlar,
Nəylə ödənilir, nəylə düzəlir.

Məmur

Qoca, vallah sənə gülməyim gəlir,
Nə bina, nə yetim. Nə yurdsuz insan.
Təki biz şad olaq, yoxsa yatmısan?
Bu cibişdan ki, var, yaxşı qulaq as,
Min xəzinə axsa, yenə də dolmaz.

Füzuli

(*sarsılmış halda*)

Cinayət. Gör nələr eşidirəm mən,
Xəyal pərdəsini çəkdi gözümdən,
Mən niyə göylərdən ummuşam əlac,
Qanlar dəryasında üzür taxtı-tac.
Deyirdim sevmirlər şeri, sənəti,
Niyə görməmişəm bu rəzaləti,
Deyirdim tək mənə ağız büzən var,
Xalqın da qanını sorurmuş onlar.

(*Əlindəki kağıza işarə edir.*)

Nədir əlimdəki? Bir ovuc qandır. –
Qan deyil, zəhərli əfi-ilandır.

Məmur

Qoca, baş apardın, uzun danışma.
Zindana düşərsən, həddini aşma.
Sultanın müqəddəs şərəfini sən,
De görək, nə haqla tənə edirsən?

Füzuli

Gürzə ilanın da qəşəng başı var,
Uzaqdan gözləri yaqut tək parlar,
Yaxından baxdınma, əsl ilandır.
O da zəhər tökən, adam çalandır.
Bəli, siz də belə müqəddəssiniz.

Məmur

Sus. Yoxsa susdurarıq biz.

Füzuli əl edib camaatı içəri çağırır. Adamlar səhnəyə doluşurlar.

Füzuli

Gəl, ey yoxsulluqdan qəlbi qan olan,
Acından balası yarımcan olan
Gəl yurdu talanan, torpağı yanan
Gəl, ey ahu-zarı ərşə dayanan,
Qəlbimdə qıvrılıb qəzəb, kin bu gün,
Qoca Füzulini eşidin, bu gün
Zülmün pərdəsini parçalayaraq
Onları, mən bu gün tanıdım ancaq

Məmurlar

Yox, yox, biz qoymarıq səni dinəsən.



Füzuli

Min qəlbin adından danışıram mən,
Min qılınc, min nizə toxunsa mənə,
Susmaram, susmaram, dinərəm yenə

Fərraşlar istəyirlər ki, Füzulini susdursunlar. Lakin kütlə həyəcanə gəlib bir səslə qoca Füzulini müdafiə edir.

Danış, böyük şair, el ağsaqqalı,
Yaxındır qəlbinə xalqın məlalı.

Nərgiz

(*camaatı yararaq Füzuliyə yaxınlaşır*)

Ucalt gur səsini, danış, Məhəmməd,
Eldir sənə verən qüvvət, cəsarət.

Füzuli

Hər sinə dolusu ah çəkəndə mən
Şerimin bir beyti qopur qəlbimdən
Deyin, nədir bu ah?
El fəryadıdır.
O, bu pak eşqimin əzəl adıdır
Çəkdiyim qəm ki, var, böyük, müqəddəs,
Min saray zinəti bu qəmə dəyməz.
Bayquş yuvasında qoca qartalam,
Deməyin gücsüzəm, deməyin lalam.
Qəlbimin alovu, atəşin sönməz,
Batar, amma göyün günəşi sönməz.

(*O, üzünü məmurlara tutur*)

Ey sevgisi rüşvət, vicdanı para.
Mən nifrət edirəm ağ saraylara,
Sənin sultanının fərmanını, bax,
Zərif əllərimlə parçalayaraq

Çırpıram o murdar, rəzil üzünə,
Qoy lənət damğası olsun o, sənə.
Bilirəm, gün gələr yetişər zaman
Ellər yapışaraq tunc saraylardan,
Onları kağız tək parçalayacaq,
Mən sal qaya kimi duraram ancaq.

**Füzuli baratı parça-parça edib məmurların üzünə çırpır. Məmurlar şaşqın bir halda çıxılmaz vəziyyətdə qalmışdır. Xalq bir ağızdan.**

Eşq olsun sənətə, eşq olsun sənə,
Adın həkk olunmuş xalqın köksünə.
Füzuli, oyandı el əfqanından
Bir gün qara baxtın oyanır, inan.

Nərgiz

O ölməz eşqindən ölüm uzaqdır,
Əzizim, el sözü doğrudur, haqdır.
Ellərin qəlbidir əzəl məskənin,
O qəlb ən müqəddəs türbəndir sənin.

Füzuli

Gedək, vəfalı yar, gedək, bu gündən
Üsyan deyəcəyəm saraylara mən.
Haqq səsim yayılıb ellərə çatsın.
Ey Füzuli, odlara yansın büsati-səltənət,
Yeydir ondan haqq bilir, bir guşəyi-gülxam mənə.

**Füzuli və Nərgiz çıxırlar. Xalq onları ehtiramla yola salır. Dəhşətə gəlmiş məmurlar ayaqları altında cırılmış kağız parçaları olduğu halda səhnədə qalırlar.**

SON

*1958*